AZƏRBAYCAN RESPUBLİKASININ
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ

AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STANDARTI

# TƏŞKİLATİ-HÜQUQİ FORMALARIN STATİSTİK TƏSNİFATI

**AZS 892:2021**

**RƏSMİ NƏŞR**

BAKI – 2021

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi kollegiyasının 2021-ci il 27 yanvar tarixli 1/4 nömrəli qərarı ilə təsdiq edilmişdir

Azərbaycan Standartlaşdırma İnstitutunun 2021-ci il 06 aprel tarixli 212323400034 nömrəli əmri ilə təsdiq edilərək dövlət standartı kimi qeydiyyata alınmış və standartlaşdırma üzrə dövlət fonduna daxil edilmişdir

**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STANDARTI**

---

# TƏŞKİLATİ-HÜQUQİ FORMALARIN STATİSTİK TƏSNİFATI

## AZS 892:2021

---

Azərbaycan Respublikasının İqtisadiyyat, Maliyyə nazirlikləri və Dövlət Gömrük Komitəsi ilə

**razılaşdırılmışdır**

---

Təsnifat T.Y.Budaqovun rəhbərliyi ilə
Y.X.Yusifov, V.H.Məmmədəlizadə, L.H.Salamzadə, Ş.N.Qarayeva və V.N.İsmayılov
tərəfindən işlənib hazırlanmışdır.

# GİRİŞ

"Təşkilati-hüquqi formaların statistik təsnifatı" (bundan sonra – Təsnifat) Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi kollegiyasının 2001-ci il 27 iyun tarixli qərarı və Azərbaycan Respublikası Dövlət Standartlaşdırma və Metrologiya Mərkəzinin 2001-ci il 05 iyul tarixli 43 nömrəli əmri ilə təsdiq edilmiş "Hüquqi vahidlərin təşkilati-hüquqi formalarının statistik təsnifatı"nın yenidən baxılmış variantıdır. Təşkilati-hüquqi forma dedikdə, hüquqi vahidin əmlakının formalaşdırılması, ondan istifadə edilməsi və bundan irəli gələn onun hüquqi statusu və fəaliyyətinin məqsədləri başa düşülür.

Təsnifatda hüquqi şəxslərin təşkilati-hüquqi formalarının kodlaşdırılması ilə yanaşı, hüquqi şəxslərin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxslərin mənafelərini təmsil və müdafiə edən ayrıca bölmələrinin (filial, nümayəndəlik və idarələrinin), habelə beynəlxalq təşkilatların nümayəndəlikləri, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri kimi digər qurumların da məlumatlarının təhlili ilə bağlı avtomatlaşdırılmış informasiya emalı sistemlərində istifadə üçün kodlaşdırılması aparılmışdır.

Təsnifat Azərbaycan Respublikası Mülki Məcəlləsinin və digər normativ hüquqi aktların müddəalarının tələbləri nəzərə alınmaqla hazırlanmış və rəsmi statistika məlumatlarının istehsalı zamanı həm hüquqi şəxslərin təşkilati-hüquqi formalarının, həm də hüquqi şəxs statusuna malik olmayan digər qurumların təsnifləşdirilməsi, sistemləşdirilməsi (strukturlaşdırılması) məqsədini daşıyır.

Təsnifatın quruluşu aşağıdakı 2 hissədən ibarətdir:

I. Kod hissəsi

II. Ad hissəsi

Kod hissəsi rəqəm kodundan istifadə etməklə kodlaşdırmanın ardıcıl sisteminə və təsnifləşdirmənin iyerarxiya sisteminə malikdir. Kodlaşdırma üçün işarələr arasında nöqtə qoymaqla rəqəm kodundan istifadə olunur. Ad hissəsi hüquq şəxslərin təşkilati-hüquqi formalarının və hüquqi şəxs statusuna malik olmayan digər qurumların adlarını əks etdirir.

## ƏSAS ANLAYIŞLAR

**Hüquqi şəxs -** qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

**Kommersiya hüquqi şəxsləri -** fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan qurumlardır.

**Təsərrüfat ortaqlıqları və cəmiyyətləri -** təsisçilərinin (iştirakçılarının) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan kommersiya təşkilatlarıdır. Təsisçilərin (iştirakçıların) maya qoyuluşları hesabına yaranmış əmlak, habelə təsərrüfat ortaqlığının və ya cəmiyyətinin öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak mülkiyyət hüququ ilə ona mənsubdur.

**Törəmə təsərrüfat cəmiyyəti -** digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olan təsərrüfat cəmiyyətidir.

**Asılı təsərrüfat cəmiyyəti -** məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olan təsərrüfat cəmiyyətidir.

**Tam ortaqlıq -** iştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olan və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyan ortaqlıqdır.

**Kommandit ortaqlığı -** ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı– maya qoyanı (kommanditçi) olan ortaqlıqdır.

**Məhdud məsuliyyətli cəmiyyət -** bir və ya bir neçə şəxs (fiziki və (və ya) hüquqi şəxs) tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyətdir. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar.

**Əlavə məsuliyyətli cəmiyyət -** bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən

cəmiyyətdir. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar.

**Səhmdar cəmiyyəti -** nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyətdir.

**Açıq səhmdar cəmiyyəti -** iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bilən cəmiyyətdir.

**Qapalı səhmdar cəmiyyəti -** səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan cəmiyyətdir.

**Kooperativlər -** fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılan hüquqi şəxslərdir.

**Qeyri-kommersiya hüquqi şəxsləri -** fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən qurumlardır.

**İctimai birlik -** təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatıdır.

**Fondlar -** üzvlüyü olmayan, fiziki və (və ya) hüquqi şəxslərin əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatlardır.

**Hüquqi şəxslərin ittifaqları -** özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda) məqsədi ilə kommersiya təşkilatları tərəfindən yaradılan ittifaqlardır. Əgər iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilirsə, belə ittifaq Mülkü Məcəllə ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir və ya sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada bilər və ya bu cür cəmiyyətdə iştirak edə bilər. Qeyri-kommersiya təşkilatları da özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər.

**Siyasi partiyalar -** Azərbaycan Respublikasının vətəndaşları tərəfindən ölkənin siyasi həyatında, vətəndaşların siyasi iradəsinin formalaşdırılmasında və ifadə olunmasında iştirak etmək niyyəti ilə yaradılmış qeyri-kommersiya hüquqi şəxsidir.

**Həmkarlar ittifaqları** - istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün iş yeri, peşələr, sahələr üzrə və respublika səviyyəsində fərdi üzvlük prinsipi əsasında könüllü birləşdiyi, nizamnamələri və "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında fəaliyyət göstərən müstəqil ictimai, qeyri-siyasi təşkilatdır.

**Publik hüquqi şəxslər -** dövlət və bələdiyyə adından yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatlardır.

**Dini qurumlar -** Dini mərkəz və idarələr, dini təhsil müəssisələri və dini icmalar, onların birlikləri dini qurumlardır. Dini qurumlar öz mərkəzi (idarələri) ilə təmsil olunurlar.

**Dövlət orqanı -** Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş hüdudlarda dövlətin məqsəd və funksiyalarını həyata keçirən, Azərbaycan Respublikasının dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşdirilən, Azərbaycan Respublikasının Konstitusiyasına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq yaradılan dövlət təsisatıdır.

**Bələdiyyələr -** qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarəetmə formasıdır. Bələdiyyələrin öz mülkiyyəti və yerli büdcəsi olur və o, Azərbaycan Respublikasının Konstitusiyası ilə və qanunla səlahiyyətlərinə aid edilmiş yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir. Bələdiyyələr bərabərlik əsasında qurulur və fəaliyyət göstərirlər.

**Nümayəndəlik -** hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsidir.

**Filial -** hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsidir.

**İdarə -** hüquqi şəxsin idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaların həyata keçirilməsi üçün yaratdığı təşkilatdır. İdarə hüquqi şəxs deyildir və hüquqi şəxsin təsdiq etdiyi əsasnamə üzrə fəaliyyət göstərir. İdarə ona təhkim edilmiş əmlak barəsində qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyətinin məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir. İdarənin öhdəlikləri üçün məsuliyyət idarəni yaratmış hüquqi şəxsin üzərinə düşür.

## TƏŞKİLATİ-HÜQUQİ FORMALARIN STATİSTİK TƏSNİFATI

| Kod | Ad |
|---|---|
| **1** | **Kommersiya hüquqi şəxsləri** |
| 1.1 | Təsərrüfat ortaqlıqları |
| 1.1.1 | Tam ortaqlıqlar |
| 1.1.2 | Kommandit ortaqlıqları |
| 1.2 | Təsərrüfat cəmiyyətləri |
| 1.2.1 | Məhdud məsuliyyətli cəmiyyətlər |
| 1.2.1.1 | Törəmə məhdud məsuliyyətli cəmiyyətlər |
| 1.2.1.2 | Asılı məhdud məsuliyyətli cəmiyyətlər |
| 1.2.2 | Əlavə məsuliyyətli cəmiyyətlər |
| 1.2.2.1 | Törəmə əlavə məsuliyyətli cəmiyyətlər |
| 1.2.2.2 | Asılı əlavə məsuliyyətli cəmiyyətlər |
| 1.2.3 | Səhmdar cəmiyyətləri |
| 1.2.3.1 | Açıq səhmdar cəmiyyətləri |
| 1.2.3.1.1 | Törəmə açıq səhmdar cəmiyyətlər |
| 1.2.3.1.2 | Asılı açıq səhmdar cəmiyyətlər |
| 1.2.3.2 | Qapalı səhmdar cəmiyyətləri |
| 1.2.3.2.1 | Törəmə qapalı səhmdar cəmiyyətlər |
| 1.2.3.2.2 | Asılı qapalı səhmdar cəmiyyətlər |
| 1.3 | Kooperativlər |
| 1.9 | Digər kommersiya hüquqi şəxsləri |
| **2** | **Qeyri-kommersiya hüquqi şəxsləri** |
| 2.1 | İctimai birliklər |
| 2.2 | Fondlar |
| 2.3 | Hüquqi şəxslərin ittifaqları |
| 2.4 | Siyasi partiyalar |
| 2.5 | Həmkarlar ittifaqları |
| 2.9 | Digər qeyri-kommersiya hüquqi şəxsləri |

| | |
|---|---|
| **3** | **Publik hüquqi şəxslər** |
| **4** | **Dini qurumlar** |
| **5** | **İdarəetmə orqanları** |
| 5.1 | Dövlət orqanları |
| 5.2 | Bələdiyyələr (yerli özünüidarəetmə orqanları) |
| **6** | **Hüquqi şəxs statusuna malik olmayan digər qurumlar** |
| 6.1 | Nümayəndəliklər |
| 6.1.1 | Xarici kommersiya hüquqi şəxslərin nümayəndəlikləri |
| 6.1.2 | Xarici qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlikləri |
| 6.1.3 | Yerli kommersiya hüquqi şəxslərin nümayəndəlikləri |
| 6.1.4 | Yerli qeyri-kommersiya hüquqi şəxslərin nümayəndəlikləri |
| 6.1.5 | Publik hüquqi şəxslərin nümayəndəlikləri |
| 6.1.6 | Beynəlxalq təşkilatların nümayəndəlikləri |
| 6.1.7 | Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəlikləri |
| 6.2 | Filiallar |
| 6.2.1 | Xarici kommersiya hüquqi şəxslərin filialları |
| 6.2.2 | Xarici qeyri-kommersiya hüquqi şəxslərin filialları |
| 6.2.3 | Yerli kommersiya hüquqi şəxslərin filialları |
| 6.2.4 | Yerli qeyri-kommersiya hüquqi şəxslərin filialları |
| 6.2.5 | Publik hüquqi şəxslərin filialları |
| 6.3 | İdarələr |
| 6.3.1 | Publik hüquqi şəxslərin idarələri |
| 6.3.2 | Yerli kommersiya hüquqi şəxslərin idarələri |
| 6.3.3 | Yerli qeyri-kommersiya hüquqi şəxslərin idarələri |
| 6.3.4 | Dövlət orqanlarının idarələri (bölmələri) |

XXX